**BMA-da "İqlim dəyişmələri" haqqında müzakirə aparılıb**

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında (BMA) COP29 "İqlim dəyişmələri" mövzusunda dəyirmi masa keçirilib.

BMA-dan AZƏRTAC-a bildirilib ki, tədbirdə çıxış edən yazar, tərcüməçi, ictimai fəal Rüstəm Mirzəyev dünyada baş verən iqlim dəyişmələri, insanların ətraf mühiti çirkləndirməsi və təbiətin qorunmasının vacibliyi haqqında danışıb.

BMA-nın tədris işləri üzrə prorektoru, professor Nərminə Quliyeva gənclərin COP29-la bağlı layihələrdə yaxından iştirak etmələrinin zəruri olduğunu vurğulayıb.

**AZƏRTAC
2024, 18 may**